# 90 il tarix elminin xidmətində

**Müasir Azərbaycan öz tarixinin ən dinamik və məsuliyyətli dövrünü yaşayır. Ərazi bütövlüyünün bərpa edilməsindən sonra ölkə öz mədəni və mənəvi ruhunun dirçəlişini yaşayır və burada elm xüsusən də tarix elmi ən vacib rollardan birini oynayır. Tarixçilər yaddaşın unudulmuş səhifələrini bərpa edir, çünki tarix milli maraqların müdafiə aləti, dövlət siyasətinin əsas istiqamətlərindən biridir bu səbəbdən tarixçi olmaq ancaq elmi yox, həm də vətəndaş missiyasıdır.**

Cəmiyyətimiz, təhsilimiz tarixin dərin, düzgün və obyektiv dərkinə ehtiyac duyurlar, alimlərimiz isə, öz növbələrində, tələb olunan yanaşmaları təmin etməyə çalışırlar.

Tarix təkcə keçmiş haqqında elm deyil, həm də tarixi yaddaşın, milli identikliyin və elmi dünyagörüşün formalaşması üçün bir əsasdır. Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu isə Azərbaycan tarixinin sistemli şəkildə öyrənilməsini təmin edən aparıcı elmi mərkəzlərlərindəndir. 1935-ci ildə təməli qoyulan bu institut, Azərbaycan tarixinin elmi tədqiqinə tuşlanmış ilk akademik müəssisə olmuşdur. 2025-ci ildə İnstitut öz mühüm tarixini - 90 illik yubileyini qeyd edir və həmin tarix onun ölkə humanitar elminə verdiyi nəticələrin dərkinə imkan verir. On illərlə əldə olunmuş təcrübə, akademik ənənələr, elmi məktəblərin yaranması, müasir yanaşmalara açıqlıq Tarix İnstitutunu nəinki Azərbaycanda, həm də keçmiş sovet məkanında tarixi fikrin mərkəzinə çevirir.

Tarix və Etnologiya İnstitutunun yaranması Azərbaycanda tarixi tədqiqatların mərkəzləşməsi və sistemləşməsi zərurətindən irəli gəlirdi. 1935-ci ildə o, öz fəaliyyətini SSRİ EA-nın Azərbaycan filialı tərkibində başladı. İnstitutun ilkin formalaşma mərhələsində əsasən qədim və orta əsrlər problemləri ön plana çıxırdı. Lakin birinci illərdən İnstitutun fəaliyyətinə siyasi repressiyalar böyük zərbələr vurmuş oldu. 1937-1939-cu illərdə bir sıra aparıcı alim, institut əməkdaşları təmizləmə siyasətinin qurbanları oldu. Buna baxmayaraq, elmi fəaliyyət dayandırılmadı, arxiv fondu formalaşdırıldı, ərəb, fars, osmanlı dillərdə olan yazılı mənbələrin sistemlı öyrənilməsi başlandı.

Sonrakı illər İnstitutun həm kadr, həm də mövzu baxımından genişlənməsi ilə səciyyələndi. Burada orta əsr dövlənlərinin, Azərbaycanda islamın yayılmasının, sosial hərəkatların, xalq çıxışlarının tarixi öyrənilməyə başlandı. Fundamental əsərlər, çoxcildlık Azərbaycan tarixi, tematik monoqrafiyalar işiq üzü gördü.

Akademiklər Ə.Əlizadənin, İ.Hüseynovun, Z.Bünyadovun, Ə.Sumbatzadənin, prof. S.Aşurbəylinin və b. əməyini xüsusi qeyd etmək lazımdır. Onlar şərq mənblərinin, epiqrafikasının və xronikaların ciddi təhlil etməklə mənbəşünaslıq və şərqşünaslıq məktəblərinin əsasını qoymuşlar.

Müstəqillik dövründə İnstitut qarşısında tarixi materialların sovet dövrünün ideoloji çərçivəsindən azad olunması və yenidən dərk etmə prosesini yaşadı. Ön plana milli azadlıq hərəkatları mövzuları, müstəqillik və Azərbaycan Demokratık Respublikası problemləri, XX əsrin faciələrinə, o cümlədən 1918 il mart soyqırımına, Xocalı qətliyamına, Qarabağ münaqişəsinə aid olan məsələlər çıxdı.

Eyni zamanda, İnstitut yeni tarixi identikliyin formalaşması prosesinin fəal iştirakçısı oldu, ingilis və digər xarici dillərdə materiallar dərc edildi, Qafqaz tarixi üzrə elmi proyektlərin, türk-müsəlman mədəniyyətinin və Azərbaycan diasporası tarixinin öyrənilməsinin təşəbbüskarı kimi çıxış etdi.

Tarix və Etnologiya İnstitutunda ənənəvi olar bir necə elmi istiqamətlər və məktəblər mövcud olmuşdur və hal hazırda fəaliyyətləri davam edir. Bunlardan ən əsas istiqamətlərdən Azərbaycanın qədim və orta əsrlər tarixidir. Burada Atropatena, Qafqaz Albaniyası, erkən müsəlman dövlətləri, Şirvanşahlar, Sacilər, Şəddadilərə aid mövzular tədqiq edilir. Əsas diqqət ərəb və fars dilində olan mənbələrə, tarixi xronikalara yönəldilir.

Siyasi strukturların transformasiyası, etnoslar arası münasibətlər, regionda islamın yayılması, etnogenez məsələləri də diqqət mərkəzindədir. İnstitut əməkdaşlarının bir sıra əsərləri beynəlxalq səviyyədə tanınmışdır.

Azərbaycan Demokratik Respublikasının(1918-1920) inkişafı, ölkənin sovet dövrü, Stalin zamanının repressiyaları, azərbaycanlılara qarşı erməni terroru tarixi, 1980-1990-cı illər milli hərəkatı, Qarabağ münaqişəsi, müasir dövlət - bunlar hamısı yeni tədqiqat mövzularına çevrildi. Bununla yanaşı Ulu Öndər H.Əliyevin Azərbaycan tarixində qoyduğu irsinin öyrənilməsi ilə İnstitutda böyük bir şöbə məşğul olur. 44 günlük Qarabağ müharibəsini, onun nəticələrini və əhəmiyyətini öyrənən, ona siyasi və elmi qiymət vermək məqsədi ilə son illərdə yeni qurum da müəssisədə fəaliyyət göstərməkdədir. İnstitutun bazasında XX-XXI əsrin əsas hadisələrinə həsr olunmuş elmi əsərlər, sənədlər topluları hazırlanmışdır. Mənbələrə tənqidi yanaşma, sistematik olaraq arxivlərin öyrənilməsi və yeniləşməsi, memuarların və xarici ədəbiyyatın tədqiqi həyata keçirilir, Azərbaycan tarixi muzeyi, Dövlət arxivi idarəsi və digər müəssisələrlə yaxından iş aparılır.

İnstitutun elmi strategiyasında mənbəşünaslıq və tarixşünaslıq da mərkəzi yerlərdən birini tutmaqdadır. Əməkdaşlar tənqidi mətnlər, ərəb, fars, osmanlı dilindən tərcümələr dərc edir, Azərbaycan tarixi dair müxtəlif dillərdə olan elmi ədəbiyyatları daim nəzərdə saxlayır, onlara münasibət bildirirlər.

Son illərdə Tarix və Etnologiya İnstitutunda, t.e.d., professor K.Şükürovun rəhbərliyi altında, bir sıra köklü və elmin müasir tələblərinə uyğun, ciddi islahatlar və yeniliklər həyata keçirilmişdi. Rəqəmsal tarix, tarixi xəritələrin tərtibi, miqrasiyalar və diaspor tarixi, təhsil, din, elm, hərb tarixi kimi məsələlər gündəmə gəlmişdir.

Elmi məlumatların elektron bazası yaradılır, humanitar sahədə əməkdaşlıq qurulur, tarixi proseslərin öyrənilməsi üçün süni intellektin imkanları nəzərdən keçirilir .

Beynəlxalq əməkdaşlığa və dünya elminə inteqrasiya məsələlərinə gəlincə, qeyd etmək lazımdır ki, Tarix İnstitutu Türkiyənin, Özbəkistanın, Rusiyanın, Qazaxstanın və s. ölkələrin elmi müəssisələri ilə geniş əlaqələr qurmuşdu. Birgə konfranslar və simpoziumlar təşkil olunur, beynəlxalq elmi indeksli jurnallarda məqalələr dərc edilir, müştərək elmi proyektlər haqqında planlar qurulur. Bütün bu addımlar isə öz növbəsində elmi təcrübənin mübadiləsinə, Azərbaycan tarixşünaslığının rəqabət qabiliyyətinin artırılnasına səbəb olur.

Tarix və Etnologiya İnstitutu həm də, məktəb və universiret dərsliklərinin məzmununa da ciddi təsir göstərir, tədris proqramlarının tərtibində fəal iştirak edir, tarixi konsepsiyaların hazırlanması ilə ciddi məşğul olur. İnstitutun alimləri dərslik və dərs vəsaitlərinin, elmi nəşrlərin müəllifləri və rəyçiləri kimi də çıxış edirlər.

İnstitutun prioritet istiqamətlərindən biri də gənc tədqiqatçılar nəslinin hazırlanması və dəstəklənməsi olmuşdur. Son illərdə burada gənclərin elmə cəlb olunması məqsədi ilə onların fəaliyyəti üçün əlverişli şərait yaradılır, istedadlı mütəxəssislərə professional inkişafı üçün imkanlar verilır, onların beynəlxalq elmi proseslərə cəlb olunması təmin edilir. Gənc alimlər az öyrənilən mövzulara müraciət edir, albanistikaya, qədim və orta əsrlər tarixinə, mədəni və dini proseslərə diqqət yetirirlər.

Bundan başqa, İnstitut ictimai fəallığı ilə də seçilir, məruzələr, dəyirmi masalar təşkil edir, həm də kütləvi informasiya vasitələrinin köməyi ilə tarixi biliklərinin yayılmasına aid iş aparır. Tarixçilər mədəni irsin qiymətləndirilməsi üzrə komissiyaların tərkibinə daxil edilir, müxtəlif dövlət tədbirlərində iştirak edir, dövlət strukturları üçün elmi məruzələr hazırlayır.

Sonda demək istərdim ki, Azərbaycan Elmlər Akademiyasının Tarix və Etnologiya İnstitutu formalaşma prosesinin iştirakçısıdır. Öz 90 illik fəaliyyəti dövründə İnstitut bir sovet elmi bölməsindən beynəlxalq nüfuza malık aparıcı tədqiqat mərkəzinə çevrilə bilmişdir. İnstitutun əsas vəzifəsi Azərbaycanın zəngin tarixi irsinin qorunmasından, dərkindən və gələcək nəsillərə onu çatdırmaqdan ibarətdir. Qloballaşma, rəqəmsallaşma, yeni çağırışlar dövründə, İnstitut öz fəaliyyətini davam etdirir və ölkəmizdə humanitar biliyin inkişafı üçün elmi zəmin yaradır.

Yubileyə aid edilmiş təntənəli tədbirlər özündə elmi konfransı, kitab sərgisini, yeni nəşrlərin təqdimatını, institutun veteranlarının və gənc alimlərinin təltif edilmə mərasimini ehtiva edir.

Tarix və Etnologiya institutunun yubileyi - keçilmiş yola bir baxış üçün, böyük alimlər nəslinə ehtiram bildirmək üçün bir fürsətdir, həm də Azərbaycanda tarix elminin inkişaf perspektivlərini müəyyən etmək üçün bir zamandır. İstərdik ki, bu əlamətdar hadisə yeni elmi nailiyyətlərə aparan işıqlı yol olsun.

Bir daha vurğulayaq ki, tarix- keçmiş deyil, tarix bizi bu gün formalaşdıran bir məfhumdur. İrəliyə, güclü və müstəqil dövlət kimi, addımlayan Azərbaycan elmin, mədəniyyətin, təhsilin gücləndirməsinə önəm verir və bu istiqamətlər arasında tarix elminin - yaddaş qoruyucusu, həqiqət müdafiəçisi, gələcəyin ilhamçısı kimi bənzərsiz yeri var.

**Nərgiz AXUNDOVA**
**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, akademik**